SİYASİ ELMLƏR: NƏZƏRİYYƏ VƏ REALLIQLAR

UOT32
https://doi.org/10.30546/ifs.2026.2.47.1343

BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA: YUMŞAQ SİYASİ “GÜC” VƏ İCTİMAİ-DİPLOMATİK LİDERLİK

Rəna Mirzəzadə
f.e.d., professor
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
mirrena@gmail.com
https://orcid.org/0000-0002-6250-1826

Xülasə. Məqalədə müasir Azərbaycanda dövlət siyasi idarəetmə institutunda aparılan islahatlar bu kontekstdə də formalaşdırılan vitse-prezidentlik institutunun siyasi hüquqi təhlili verilir. İlk Birinci vitse-prezident Xanım Mehriban Əliyevanın ölkədə və beynəlxalq aləmdə ictimai-diplomatik, “yumşaq siyasi güc” fəaliyyəti nəzərə yetirilir. Həmçinin, tədqiqatda Birinci vitse-prezidentin çoxşaxəli fəaliyyəti açıqlanır, Prezident İlham Əliyevin də çıxışlarından nümunə verilir. Birinci vitse prezidentlik institutunun ölkədə yeri, rolu və dövlətdə operativ, çevik işləri də araşdırılır.

Açar sözlər: vitse prezident, Birinci vitse-prezidentlik, ictimai-diplomatiya, yumşaq güc, qadın Lider.

FIRST VICE-PRESIDENT MEHRIBAN ALIYEVA: SOFT POLITICAL "POWER" AND PUBLIC DIPLOMACY LEADERSHIP

Rena Mirzazadeh

Abstract. The article provides a political and legal analysis of the institution of the First Vice Presidency, established as part of the reforms implemented in the system of public administration in modern Azerbaijan. The study examines the socio-diplomatic and soft power activities of the First Vice-President, Mrs. Mehriban Aliyeva, both domestically and internationally. The study also examines the multifaceted activities of the First Vice-President, and provides examples from the speeches of President Ilham Aliyev. The study also examines the role and significance of the First Vice-Presidency, as well as its effective and flexible within the system of public administration.

Keywords: vice president, First Vice-Presidency, public diplomacy, soft power, women’s leadership.

ПЕРВЫЙ ВИЦЕ-ПРЕЗИДЕНТ МЕХРИБАН АЛИЕВА: МЯГКАЯ ПОЛИТИЧЕСКАЯ «ВЛАСТЬ» И ПУБЛИЧНО-ДИПЛОМАТИЧЕСКОЕ ЛИДЕРСТВО

Рена Мирзазаде

Резюме. В статье представлен политико-правовой анализ института вице-президентства, сформировавшегося в контексте реформ, проведенных в государственном политическом управлении современного Азербайджана. Рассматривается социально-дипломатическая деятельность и «мягкая политическая сила» первого вице-президента Мехрибан Алиевой как в стране, так и на международной арене. Исследование также раскрывает многогранность деятельности первого вице-президента и приводит примеры из выступлений президента Ильхама Алиева. Рассматривается место и роль института первого вице-президентства в стране, а также его оперативно-гибкая работа в государстве.

Ключевые слова: вице-президент, первый вице-президент, публичная дипломатия, мягкая сила, женщина-лидер.

“Mən Azərbaycan xalqının mənafelərini müdafiə edəcəyəm”
Birinci Xanım Mehriban Əliyeva

Giriş

Dünyanın dəyişən yeni düzəni suveren Azərbaycanın bu dövrə uyğun modern inkişafının əsasını qoymuş Prezident İlham Əliyevin strateji kursu ilə ölkənin maraq və mənafe paralelliyində imkan və potensialının qarşıya çıxan hədəf prioritetlərini şərtləndirir. XXI əsrin üçüncü onilliyində müstəqil respublikanın inkişaf yolu Prezident İlham Əliyev siyasi diplomatik praqmatizmindən irəli gələn “Güclü Azərbaycan” modeli paradiqması zəminində yeni innovativ tərəqqini gerçəkləşdirən, islahatlarla səciyyələnən reallıqlardır. Suveren Azərbaycanda postmüharibə dövründə yeni reallıqların meydana çıxması ilə ölkədə maraq və tələblər də dəyişir, yenilənir**.** İnstitusional islahatlar ölkədə milli dövlət idarəetmə sisteminin zamanın dəyişən hədəf və tələblərinə adaptik qurulmasını şərtləndirir**.** İslahatlar institusional qurumların, dövlət və hakimiyyət sisteminin dəyişən tələb və hədəflərinə uyğun mexanizmlərinin meydana çıxmasını zəruri edir.

1. Azərbaycanda dövlət idarəetmə forması.

Bu mətndən Azərbaycanda dövlət siyasi idarəetmə formasına nəzər yetirək.

- Müstəqil Azərbaycanda Prezidentlik institutu dövlət hakimiyyəti sistemində əsas idarəetmə formasıdır. Zamanın tələblərinə uyğun olaraq Prezidentlik institutu da özünün təşəkkülü və inkişafında yeniləşərək, Konstitusiyaya dəyişikliklər və əlavələr nəticəsində daha da təkmil metoda keçmişdir.

Azərbaycan Konstitusiyasının 7-ci maddəsinin 3-cü müddəası “dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir” formasında əks edilmişdir (1;5).

2016-cı il sentyabrın 26-da Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilən Referendumda dövlət siyasi-ictimai idarəçiliyində ilk və yeni institut – Birinci vitse-prezidentlik yaradıldı. Müstəqil Azərbaycanda Birinci vitse-prezidentlik təsisatının formalaşdırılması dövlət idarəçiliyində funksional vahid olaraq ölkənin idarəetmə sistemində yeni və aktuallıq kəsb edən İnstitutdur.

2016-cı il 26 sentyabr Referendumunda Konstitusiya dəyişiklikləri - Birinci vitse-prezidentlik təsisatının yaradılması Prezident İlham Əliyev siyasi qətiyyətinin, yenilənmənin, islahatın, ölkə ictimaiyyətinin dəstəyi ilə həyata keçirilən mövqedir.

2. Vitse-prezidentlik institutu.

Müasir Azərbaycanda Prezidentlik institutuna aid islahatlardan ən əsası Azərbaycanda ilk dəfə Vitse-prezidentlik institutunun yaradılmasıdır. Vitse-prezidentlik institutunun formalaşması dövlət idarəetməsində yeni və mühüm prosesdir. Bu institut yeni islahatların getdiyi müasir dövrdə dövlətçilik sistemində, siyasi-hüquqi idarəetmədə effektivliyin artırılması, ictimai-humanitar-mədəni proseslərin reallaşdırılmasında səmərəli inkişaf yoludur. Vitse-prezidentlik institutunun konstitusion əsaslarla təsis olunması Respublikada siyasi dövlət idarəetməsinin təkmilləşdirilməsi paradiqmasıdır.

2016-cı ildə Konstitusiyaya əlavə edilmiş 103-1-ci maddə “Azərbaycan Respublikasının vitse-prezidentləri” adlanır və onun 1-ci bəndində yazılır ki: “Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər” (1; 36). Konstitusiyanın 103-1-ci maddəsinin 2-ci bəndində də yazılıb: “Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir” (1;36).

3. İlk Birinci vitse-prezident - Xanım Mehriban Əliyeva.

Birinci vitse-prezidentlik institutu ölkədə funksional dövlət idarəçiliyində çeviklik və effektliyin artırılmasında, Prezidentlik institutunun tərkib hissəsi kimi aktuallığı ilə mühüm təsisatdır.

Azərbaycan Respublikası Konstitusiyası 105-ci maddəsinin I, II, III bəndləri (1;37), 106-1 maddəsi (1;32), 108-1 maddəsi (1;39) və 110-1 (1;42) maddəsi vitse-prezidentlik institutunun səlahiyyət və fəaliyyətlərini qanunla təsbit edir.

Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli Sərəncamı ilə ölkədə ilk dəfə Birinci vitse-prezident vəzifəsinə Heydər Əliyev Fondunun Prezidenti Mehriban Arif qızı Əliyeva təyin edilmişdir (2).

Öncüllük, birincilik Tanrı yazısı, İlahi qismətin seçilmişlərindən biri olma şansıdır. Və hər bir şəxsin gələcək həyat yolu onun öz daxili keyfiyyətlərindən qaynaqlanan yaşam fəlsəfəsidir. Mədəni-diplomatik “güc” fəlsəfəsi də təşkilatçılıqda enerjilik, çeviklik, iş fəaliyyətində innovativlik, ünsiyyətçillik, nüfuz, ədalətlilik, bacarıq, kreativlik, insanlara qayğı, diqqət, cəmiyyətdə idarəçiliyi əks etdirən Liderlik keyfiyyətidir.

21 fevral 2017-ci il Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edən Prezident İlham Əliyev Xanım Mehriban Əliyevanın müasir Azərbaycanın ictimai-mədəni, siyasi həyatında vacib və aktiv rol apardığını, Yeni Azərbaycan Partiyasında sədrin müavini, Milli Məclisin deputatı olaraq səmərəli və əhəmiyyətli işlər aparmasını, çoxistiqamətli beynəlxalq fəaliyyətini, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həm Azərbaycan, həm də bölgənin ən böyük ictimai təşkilatı olmasını, ölkədəki bir çox qlobal tədbirlərin təşkilində aparıcı rol oynadığını, Azərbaycan dövlətinin ən ali mükafatı olan “Heydər Əliyev” ordeni ilə təltif olunmasını, bu çoxşaxəli fəaliyyəti Xanım Mehriban Əliyevanın Ali statuslu təyinatında mühüm rol daşımasını qeyd etmişdir. Bu kontekstdə Birinci vitse-prezidentin söylədiyi kimi: “Biz bu gün bərabər hüquqlardan bərabər imkanlar siyasətini gerçəkləşdiririk”(4).

Diqqətə yetirək ki, bu illər ərzində ölkədə Birinci vitse-prezidentlik təsisatı çevik, formalaşmış funksional yeni bir təsisat olaraq çoxistiqamətli fəaliyyət aparır.

İlk Birinci vitse-prezident Xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti, bacarığı, Ulu öndər Heydər Əliyev məktəbindən mənimsədiyi çoxillik idarəçilik təcrübəsi bu təsisatın formalaşmasında vacib rol daşıyır. Prezident İlham Əliyev bu keyfiyyətlərə nəzər yetirərək vurğulayıb: “Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır”(2).

Birinci vitse-prezident Mehriban Əliyevanın təşkilatçılıq təcrübəsi, xarizmatik xüsusiyyətləri, milliliyi modernliklə vəhdətdə ehtiva etməsi XXI əsr Azərbaycan qadınının ictimai-siyasi-mədəni LİDERlik obrazıdır.

Xanım Mehriban Əliyeva vurğulayır ki, “Bütün bu illər ərzində mən öz beynəlxalq fəaliyyətimi nizamlamalı olurdum. İlk növbədə, bu, mənim üçün dünya ictimaiyyətinə Azərbaycanın tarixini, mədəni irsini, bununla yanaşı, Azərbaycanın bugünki siyasi və ictimai gerçəkliklərini çatdırmaq imkanı idi. Müasir Azərbaycanın nə demək olduğunu, onun əhəmiyyətini, siyasi mövqeyini, bu ölkənin potensialını dünya ictimaiyyətinə çatdırmaq lazım idi” (4).

Birinci vitse-prezident Xanım Mehriban Əliyeva Liderliyinin fəaliyyət yolu, məqsəd və məramı, həyata keçirdiyi tədbir və təşəbbüslər, gerçəkləşdirdiyi həm ölkədaxili sosio-mədəni layihələr, həm də beynəlxalq mədəni-diplomatik “güc” missiyasıdır.

Xanım Mehriban Əliyeva vurğulayır ki: “İstər ictimai, istərsə də dövlətçilik fəaliyyətimdə daim çalışıram ki, sarsılmaz həqiqətlərə söykənim. Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir” (5).

-Ölkənin Birinci Xanımının mənən zənginliyi və geniş dünyagörüşü, zəkasının kreativ məcmusu, universal intellekti, kübarlıq xüsusiyyəti Liderlik komponentləridir.

Modern Qadın Lider obrazı Birinci vitse-prezidentin Azərbaycan milli irsinin təbliğindəki yorulmaz əməyi də Xalq+Dövlət Birliyindən qaynaq alan mədəni-diplomatik “güc” amilidir.

Diqqətə çatdıraq ki, Azərbaycan xalqı Xanım Mehriban Əliyevanı bir güvənc, bir ümid, bir etimad göstərdikləri Qadın Lider Rəhbər kimi qəbul edir.

Bir önəmli məsələyə də nəzər yetirək. Belə ki, müstəqil Azərbaycanda Birinci Xanım statusu Xanım Mehriban Əliyevanın ictimai-mədəni-diplomatik yumşaq “güc” fəaliyyəti zəminində formalaşmışdır. Ölkə Prezidentinin sədaqətli həyat yoldaşı Birinci Xanımın respublikanın humanitar, ictimai-siyasi həyatında, eləcə də beynəlxalq müstəvidə tanınmasında rolu təkzibolunmaz, mədəni-diplomatik fəaliyyəti çoxspektrlidir. Bu kontekstdən Azərbaycan xalqı Birinci xanımı bütün hadisə və proseslərin mərkəzində, öz diqqəti, münasibəti, vətənsevər humanizmi ilə ölkə vətəndaşlarına olan sayğı və qayğısında görür, həyatlarında hiss edirlər.

4. Lider-Qadın-Rəhbər.

Xanım Mehriban Əliyeva liderliyinin əsas qayəsi əsrlərdən gələn Azərbaycan milli irsini, mədəniyyətini beynəlxalq aləmdə tanıtdırması, dövlətçilikdə mədəni-diplomatik “güc” siyasi-fəlsəfəsidir.

Vətən müharibəsində Xalq bütün dəstəyi ilə “İrəli, Baş Komandan!” amallı Milli Orduya dəstək məsləyində və Prezident İlham Əliyev hərbi-siyasi-diplomatik-informasion savaş meydanında idisə, Birinci vitse-prezident də vətəndaşlara, şəhid ailələrinə, qazilərə diqqət və qayğı cəbhəsinə dəstək olurdu. Vətən müharibəsində məhz xalqın, Milli Ordunun, dövlətin bu vəhdətdən irəli gələn birliyi həm döyüş meydanında, həm də mədəni-diplomatik “güc” savaşında Zəfər qazandı.

Birinci vitse-prezidentin “diplomatik-mədəni güc” sahəsində fəaliyyət məkanı genişdir. Bu: ictimai diplomatiya, yeni xeyriyyəçilik modeli, milli musiqi, muğam, sazın dirçəldilməsi, milli mətbəx və xalçaçılığın dünyada tanıdılması, ölkənin şəhər və rayonlarının, Qarabağın işğaldan azad olan ərazilərinin bərpa - quruculuq işlərində ənənəviliklə modernliyin vəhdətinin yaradılmasında iştirak və s. proseslərdir. Bu mənada idmanın təbliği, Azərbaycanda idman hərəkatının dünyaya tanıdılması da mədəni-diplomatik “güc”dür. Bütün bu vəhdətdə təşəbbüskarlıq və təşkilatçılıq Prezident İlham Əliyev siyasətinin modern inkişaf xəttinin siyasi-fəlsəfi istiqamətidir. Bakıda Birinci Avropa Oyunları, eləcə də İslam Oyunlarında Təşkilat Komitəsinin sədri Xanım Mehriban Əliyeva idman yarışlarını “mədəni güc” amili kimi beynəlxalq “Azərbaycan İdman Günü” Bayramına döndərdi. “Azərbaycan İdman Günü” Bayramında qədim idman oyunları tariximizin müasir baxımdan milli çalarlı xüsusiyyətləri əks olunurdu.

Birinci vitse-prezidentin işğaldan azad edilən torpaqların, Qarabağın yenidən bərpasında fəaliyyətinin əsasında Xalqa xidmət siyasi fəlsəfəsinin təməli, məhz sevdiyi xalqının gələcəyi dayanır.

Birinci vitse-prezident həm Vətən müharibəsindən öncə, həm post-müharibə dövründə dünyada Xalqının sülhməramlı elçisi olaraq sabitlik, mədəniyyətlər və dinlərarası dialoq müstəvisində, dinc yanaşı yaşamaq, təhlükəsiz, müharibəsiz həyat, beynəlxalq ictimaiyyətə “Sülh, Həmrəylik, Bərabərlik” ideyaları ilə səslənən Azərbaycanın Qadın Rəhbər Lideridir.

Birinci vitse-prezidentin diplomatik-mədəni “güc” siyasi-ictimai fəlsəfəsinin məğzinə Xanım Mehriban Əliyevanın öz məntiqi ilə nəzər yetirək: “Mən əsas diqqəti sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirmək istəyirəm”. Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərinin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. Bunlar olmamalıdır. İstər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır” (6).

Qadın Lider obrazı, ictimaiyyətçi, xeyriyyəçi olmaq Xanım Mehriban Əliyevanın yumşaq diplomatik-mədəni “güc” siyasətinin siyasi-fəlsəfi xəttidir.

Birinci vitse-prezidentin ölkə sərhədlərindən də uzaqlarda təhsil, sağlamlıq, təbii fəlakətlər zamanı yardım və xeyriyyəçilik missiyası, həm Qərb, həm də Şərq məkanı ölkələrini əhatə edir, təşəbbüs və rəhbərliyi ilə gerçəkləşdirilən humanitar-mədəni aksiyalar məhz bu qəbildən olan fəaliyyət yolunun Mədəni “güc” siyasi fəlsəfəsidir.

Azərbaycanın Birinci vitse-prezidenti ölkədə, Türk, İslam, Qərb dünyasında geniş fəaliyyət dairəsi, mənəvi dəyərlərə hörmət, mədəni irsi yaşatmaq diqqəti ilə, intellektli, kübar davranışlı modern və sivil dünyagörüşlü Qadın - Rəhbər, siyasi-ictimai, idarəedici funksiyası ilə beynəlxalq ictimaiyyət tərəfindən də Qadın Lider olaraq səciyyələndirilir.

Xanım Mehriban Əliyevanın istər sabiq Milli Məclisin deputatı, istər YAP sədrinin Birinci müavinədək siyasi Yolu Birinci vitse-prezidentlik təsisatında fəaliyyəti Rəhbər Lider idarəçiliyidir. Xanım Mehriban Əliyevanın ictimai-mədəni yanaşmasında əsas qayə insana qayğı, diqqətli münasibətdir. Xanım Mehriban Əliyeva vurğulayır: “Mənim məqsədim ondan ibarətdir ki, belə deyək, hətta tənqidə ən çox meyil edən təbəqələrin də müəyyən müddətdən sonra tənqid üçün az əsası olsun” (6). Bu keyfiyyətlər ictimai xadim – alim – Qadın Rəhbər Liderlik siyasi-fəlsəfi “güc” xəttidir.

Azərbaycan xalqı Birinci vitse-prezidentin çoxistiqamətli fəaliyyətini dəstəkləyərək, ona güvənc və inam yeri sanır, məhəbbətlə etimad bəsləyir, ölkə üçün ictimai-humanitar-mədəni fəaliyyətini təqdir edərək, müxtəlif problemlərin həllində ona müraciət edirlər. Birinci vitse-prezident xalqın müxtəlif qruplarının məsələlərinin həllində, valideyn qayğısından məhrum olan uşaqlara xüsusi diqqət göstərməkdə, çoxəsrlik mədəni irsimizin təbliğinə və s. sahədə çoxsaylı sosial-humanitar-mədəni layihələrin reallaşdırılmasını həyata keçirir.

Xanım Mehriban Əliyeva siyasi fəlsəfəsinin “güc” xəttinin mühüm məqamı Azərbaycan qadınının siyasi-ictimai, mədəni-diplomatik obrazını öz fəaliyyəti ilə təqdimi müasir Azərbaycan qadınının beynəlxalq müstəvidə LİDERLİK göstəricisidir.

Xanım Mehriban Əliyevanın Azərbaycanın və dünyanın çoxsaylı nüfuzlu adları və mükafatları ilə təltif olunması çoxşaxəli fəaliyyətinə verilən qiymətin mədəni, siyasi fəlsəfəsi, yumşaq “güc”üdür. Bu mükafatlar savad, zəka və qətiyyətlilik, idarəetmədə peşəkarlıq və bilgi, işində iradəli prinsipiallıq və humanitarlıq missiyası ilə bahəm, yaradıcı ağıl, millətinə, ölkəsinə, dünya insanlığına olan ülvi yanaşmanın, həmçinin mədəni-diplomatik Liderlik “güc”üdür.

Xanım Mehriban Əliyeva Azərbaycan Prezidentinin, Qalib Ali Baş Komandanın ömür-gün yoldaşı, silahdaşı, üç övladının anasıdır. İctimai-siyasi fəaliyyətlə ailə məsuliyyətinin vəhdətini yaratmaq, Qadın-Dost-Ana xüsusiyyəti, ictimai-diplomatik-humanistik fəaliyyəti də bu keyfiyyətləri cəmiyyətlə uyğunlaşdırma yoludur.

Birinci vitse-prezident statusu Azərbaycan xalqı tərəfindən məntiqi qərar kimi qəbul olunaraq, ölkə vətəndaşları tərəfindən müsbət dəstək qazandı. Bu onilliklər ərzində formalaşan Lider Qadın, Rəhbər Birinci Xanım və sadəliyin bariz nümunəsi olaraq, xalqının Vətənsevər övladı kimi “Sizin Mehriban” imzasında təsdiq olundu. Ölkə vətəndaşları Birinci Xanımı insanların sırasında, öz yaxınlıqlarında görməyə alışmışlar. Bu, insanpərvərlikdən, genetik xarakterdən, ziyalılıqdan və yüksək kübar keyfiyyətdən irəli gələn elit mədəniyyətdir. Məhz bu komponentlər Xanım Mehriban Əliyevanı xalqının ümid, inam ünvanına və “Sizin MEHRİBAN” imzalı sevimlisinə çevirmişdir.

Birinci vitse-prezident vurğulayır ki: “ Mən Prezidentin etimadını, ən başlıcası isə, mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam” (6).

Xanım Mehriban Əliyeva Dövlət xadimi, ölkənin Qadın-Lider-Rəhbər təmsilçisi olaraq Liderdir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 2024-cü il noyabrda Azərbaycanda keçirilən COP29 tədbirində Birinci vitse-prezident Mehriban Əliyeva ictimai-siyasi və diplomatik-humanitar mövzuda çıxış etdi, məruzəsinin də əsas paradiqmaları “ölkələrə sülh və əmin-amanlıq diləməklə” dünyaya BARIŞ siyasi-fəlsəfi çağırışı idi (6).

Dövlət siyasi idarəetməsində Birinci vitse-prezidentlik institutu da məhz “Güclü Azərbaycanın” inkişafı effektivliyi yolunu əks etdirir.

Konstitusion Azərbaycanda vitse-prezidentlik təsisatı dövlətçilik sahəsində siyasi-ictimai-mədəni idarəetmədə daha çevik və effektliliyin formalaşması, hüquqi dövlət zəminində demokratik dəyişimlərin qanuni əsaslarında yenilənmə islahatları mexanizminin aparılma ehtivasıdır.

Birinci vitse-prezidentlik institutu:

-XXI əsrdə müstəqil Azərbaycanda 2016-cı il referendumun ilə təsbit olunan, ilk dəfə təsis edilən, Konstitusiya ilə tənzimlənən İnstitutdur.

- İlk növbədə humanizm məramlı mədəni milli təhlükəsizlik komponentidir.

-Dövlət idarəetməsində səlahiyyətlilik statuslarının şaxələnmə prosesidir.

-İcraedən ilə idarəetmənin vəhdətində siyasi-fəlsəfi xəttdir.

-Türk-Şərq-İslam aləmində də optimal idarəçilik modelidir.

-Çevik, operativ qərarların daha da məsuliyyətliliyinin formalaşdırılmasıdır.

-Ölkədə hakimiyyət və idarəetmədə yeni layihə və islahatlara dəstəkdir.

- Beynəlxalq, qlobal, lokal, yerli səviyyədə humanitar, milli-mədəni prosesləri əks etdirir.

Xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin məğzində xalqa, Vətənə xidmət məramı dayanır. Bu nəzərdən bu:

- Dövlət Xadimi, Qadın Liderin dövlətin, ölkənin dayanıqlı inkişaf xəttində istirakı gender siyasəti göstəricisidir.

- Heydər Əliyev Fondunun prezidenti olaraq gerçəkləşdirilən layihələrdə Ulu öndər Heydər Əliyev məktəbinin mənimsəmə və həyata tətbiqində nümunəvi siyasi-fəlsəfi dərslərdir.

- Milli dəyərlərin geniş miqyaslı təbliğində milli adət-ənənələrin qorunması, dünyaya tanıdılması yeni məzmunda bu irsi institutlaşdırma ilə maarifçilik hərəkatı dirçəldilir. Ulu öndər Heydər Əliyevin siyasi-mədəni “güc” Yolu məktəbləşdirilir.

- Xanım Mehriban Əliyeva Prezident İlham Əliyevin müasir Azərbaycanın dayanıqlı və modern inkişaf strategiyasının mədəni-mənəvi, ictimai-diplomatik “güc” siyasətinin həyata keçməsində önəmli rol aparır.

- Birinci vitse-prezidentin mədəniyyətindən irəli gələn vətənpərvərlik, torpağına, el-obaya bağlılıq keyfiyyətləri rasional təfəkkürün, ağıllı zəkanın təzahürünün dövlətin ictimai-mədəni idarəetmə sahəsində humanitar “güc” dəstəyidir.

Nəticə

Diqqətə yetirək ki, suveren Azərbaycanda Birinci vitse-prezidentlik Konstitusion, ilk innovativ ictimai-siyasi, diplomatik-mədəni “güc” İnstitutudur.

Fikrimizi Birinci vitse-prezidentin - Bizim Mehribanımızın sözləri ilə bitirək: “Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq, ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə çıxmaq olar” (4).

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikası Konstitusiyası, Bakı, 2020, 62 səh.
2. Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 21.02.2017. president.az/az
3. facebook.com/photo.php?fbid=4251132695006673&8id gündəlik həyatımızda.
4. mehribanaliyeva.preslib.az/media Ajhj5HozCQ.html
5. Mehriban Əliyeva ailə, dəyərlər və xoşbəxtlik haqqında. 26 avqust 2019. Report.az/daxili-siyaset/
6. Heydar-aliyev-foundation.orq/az/content/view/59/4445/ Mehriban Əliyeva “Rossiya 1” telekanalına müsahibəsindən. 26.02.2017.
7. Rəna Mirzəzadə. “Yaşıl mədəniyyət”. Azərbaycan qəzeti, №139 (9883) B., 2024-cü il, 21 noyabr. www.azerbaijan-news.az

Rəyçi: f.e.d., professor İlham Məmmədzadə